*Tanış olun, həmyerlimizdir*

# Fədakar hə-

Hələ uşaqlıq çağlarımdan onun adını eşitmişdim. Uşağı xəstələnənə, burun-boğazında problem olanlara məsləhət verirdilər. Ağdaşa—Əlövsət həkimin yanına gedin. Yaxşı həkimdir, yaxşı insandır.

Vaxt gəldi. Bu yaxşı həkim və yaxşı insanla tanış oldum. Onun haqqında tanıyanların hamısının dediyi xoş sözlər əbəs deyilmiş...

Əlövsət Mahmudov 1940-cı ildə Qəbələ (o vaxtkı Qutqaşın) rayonunun Böyük Əmili kəndində Hüseynqulu kişinin sadə kəndli ailəsində dünyaya göz açıb. Uşaqlığı Böyük Vətən Müharibəsinin qanlı-qadalı illərinə təsadüf edib. Bəlkə buna görədir ki, kiçik Əlövsətdə dözüm, iradə, böyüklərə məxsus səbr və fikir yürütmək qabiliyyəti vardı.

Müharibə illəri və müharibədən sonrakı ilk illərdə ərzaq çatışmazlığı və digər məhrumiyyətlər üzündən insanlar arasında xəstəliklər çox yayılmışdı. Həkim də çatışmırdı. Buna görə Hüseynqulu kişi oğlu Əlövsətin həkim olmasını arzulayırdı. 1957-ci ildə Hacıalılı kənd tam orta məktəbini bitirən Əlövsətin də arzusu atasının arzusu ilə üst-üstə düşürdü. O, Böyük Əmili kəndinin ilk həkim övladı olacağını, xəstələrə, xüsusən qızdırma və sair xəstəlikərdən əziyyət çəkən uşaqlara şəfa verəcəyini xəyalında canlandırırdı.

Ata və oğulun müştərək arzusu 1958-ci ildə gənclik yaşına yenicə qədəm qoymuş Əlövsəti Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutuna gətirib çıxardı.

1964-cü ildə tibb institutu-



nu (indiki Azərbaycan Tibb Universiteti) müvəffəqiyyətlə başa vuran Əlövsət pediatr (uşaq xəstəlikləri üzrə həkim) ixtisası üzrə həkim kimi Ağdaş Rayon Mərkəzi Xəstəxanasına göndərildi. Ömrünün 45-ci ilini burada çalışan Əlövsət Mahmudov 1965-ci ildə Ağdaş Rayon Uşaq Xəstəxanasının baş həkimi təyin olundu.

Həmin illərdə Ağdaş rayonunda uşaqlar arasında qulaq-burun-boğaz xəstəliklərinə daha çox təsadüf olunurdu. Həmin sahə üzrə həkim olmadığından rayon mərkəzi xəstəxanası baş həkiminin məsləhətilə Əlövsət həkim həmin sahə üzrə ixtisaslaşmaq üçün Bakıya göndərildi.

Boğaz-burun-qulaq xəstəlikləri üzrə tam kursu bitirən Əlövsət həkim 1970-ci ildən bu sahə üzrə də çalışmağa başladı. Əlövsət həkim həm uşaq həkimi, həm də burunboğaz-qulaq həkimi kimi Ağdaşda və ətraf rayonlarda böyük hörmət, nüfuz qazandı.

2011-ci ildə təqaüdə çıxan Əlövsət həkim taleyini körpələrin sağlamlığı keşiyində dayanmaq kimi çətin və şərəfli işə sərf etdiyindən bu gün də məmnundur.

O deyir: Uşaqlar bizim gələcəyimizdir. Onların sağlam və gümrah böyüməsi biz həkimləri ikiqat sevindirir. Bu gün vaxtilə xəstəliyin, bəzən Allahın köməyi ilə ölümün cəngindən xilas edilməsində azacıq da olsa rolum olmuş o vaxtki uşağı sağlam, həyatda mövqe tutmuş bir gənc kimi, bir insan kimi görmək mənim ən böyük mükafatımdır.

Vaxtilə müalicə etdiyim xəstələrin, onların valideynlərinin təbəssüm dolu baxışlarını görməkdən daha qiymətli nə ola bilər?

Təkcə həkimlik fəaliyyətini bütünlüklə həsr etdiyi Ağdaşda deyil, ətraf rayonlarda da Əlövsət həkimi peşəsinin bilicisi və vurğunu kimi tanıyırlar.

Əlövsət həkim təqaüddə olsa da rayonun ictimai işlərində fəal iştirak edir. Onun peşəsinə vurğunluğu övladlarında da həkim peşəsinə hörmət və meyllilik yaratmışdır. Dörd övladının dördü də bu müqəddəs peşəni seçmiş, atalarının yolu ilə uğurla addımlayırlar.

Hələ gənclikdə Əlövsət həkim təbiət vurğunu olmuşdur. Ola bilsin ki, doğma Qəbələnin, Böyük Əmilinin füsunkar təbiəti onda bu vurğunluğu yaratmışdır.

Bu gün ahıllıq yaşında olan Əlövsət həkim eyni gənclik şövqü ilə daim ana təbiətin gözəlliklərinə tamaşa etmək üçün gəzintilərə çıxır, yarpaqların pıçıltısı, bulaqların şırıltısı, iti axan çayların səsi sanki ona gənclik enerjisi verir.

**Çələbi DÖNMƏZ.**

# Müdrik deyimlər

Qəflətdə yatma ki,
qeyrət vaxtıdır,
İndi hünər vaxtı,
qüdrət vaxtıdır.

**Nizami Gəncəvi.**

Yaxşı başlanğıc işin yarısı deməkdir.

**Platon.**

Həyatda əziyyətsiz rahatlıq yoxdur.

**Nəsrəddin Tusi.**

İş səni yetirər vara, qazanca,
İşsiz qazancın da gedər asanca.

**N. Xosrov.**

Bacaran yaradar, bacarmayan öyrədər.

**Bernard Şou.**

Kədər ağıllı insanların müəllimidir.

**G. L. Bayram.**

Cəld və cəsur ol. Bir gün geriyə baxdığında etdiklərindən çox etmədiklərin üçün peşman olacaqsan.

**Jakson Braun.**

Axtardığını bilməyən, tapdığının fərqinə varmaz.

**Clude Bernar.**

Ağıllı olmasan da yumşaq qəlbli (səmimi) ola bilərsən, amma yumşaq qəlbli olmadan ağıllı ola bilməzsən.

**Çin atalar sözü.**

Ən xeyirli comərdlik ehtiyacı olanı tapıb ona kömək etməkdir.

**Əbu Süleyman.**

Daşqınlığın sonu şaşqınlıqdır.

**Revai.**

*Sizin maraq dünyanız*

# Əzmkarlıq nümunəsi

1986-cı il noyabrın 22-də Cənubi Afrika Respublikasında anadan olmuş Oskar Pistorius həyata bağlığı, əzmkarlığı ilə nəinki vətənində, bütün dünyada şöhrət qazanmışdır. Məsələ ondadır ki, o genetik bir xəstəliklə dünyaya gəlib cəmi 11 aylıq olduğu zaman xəstəliyi ilə əlaqədar hər iki ayağı dizdən aşağı amputasiya olunub. Oskar ilk addımlarını yaşıdları kimi öz ayaqlarıyla yox, onun üçün düzəldilmiş protez ayaqlarla atır. Vaxt keçdikcə balaca Oskar buna öyrəşir. Hətta, o qədər öyrəşir ki, məktəbdə oxuduğu vaxt məktəblərarası yüngül atletika yarışlarına da qatılır. 15 yaşında cavan anasını da itirən Oskarı düşdüyü depressiyadan idman çıxarır. Oskarı reqbi, su polosu kimi bir neçə idman növüylə məşğul olur. Oskar İslandiyanın «Össür» şirkətinin onun üçün xüsusi dizaynla hazırladığı protez ayaqlarla 100 metrlik məsafəni 10 saniyəyə qət edir. O, yüngül atletika yarşılarına hazırlaşmaqla yanaşı, Pretoria universitetində ticarət və idarəetmə ixtisası üzrə təhsil alır, eyni zamanda bu universitetdə reabilitasiya kursu keçir.

Gərgin məşqləri və reabilitasiya öz nəticəsini verir. Belə ki, o, qatıldığı ilk Afrika qitəsi üzrə yarışda 5-ci olur və bütün dünyanın diqqət mərkəzinə düşür. O, hətta «ayaqları olmayan ən sürətli insan kimi «Ginnesin rekordlar kitabı»na da düşür.

Oskar 2004-cü ildə Yunanıstanın paytaxtı Afinada keçirilən paralimpiya oyunlarında 100 metr məsafəyə qaçışda bürünc medal qazanır. Cəmi 4 il sonra Pekində keçirilən analoj turnirdə bürünc medalını qızıla çevirir.

Oskarın qaçış üzrə nəticələri sağlam idmançılardan fərqlənmədiyinə görə o, olimpiya oyunlarında iştirak etmək istəyirdi. Beynəlxalq Atletika Federasiyası buna etiraz etsə də Oskar Beynəlxalq İdman Arbitraj Məhkəməsinə müraciət edir və olimpiya oyunlarında iştirak etmək hüququ qazanır.

2011-ci ildə yüngül atletika üzrə dünya çempionatında 400 metr məsafəyə qaçışda böyük uğur qazanan Oskar bir il sonra London olimpiya oyunlarında uşaqlıq xəyalına çatdı. Olimpiadada o, yengül atletikanın həm olimpiya, həm də paralimpiya yarışlarında qızıl medala yiyələndi.

Bu gün dünyanın adlı-sanlı firmaları, Oskarla reklam müqaviləsi bağlamağa, öz mallarını onun adı ilə daha da məşhurlaşdırmağa can atırlar. Beləcə Oskarın əzmkarlığı və iradəsi onu daimi yataqdan, əlil arabasından zirvələrə qaldırdı.

**Qüdrət SƏMƏDOV.**


**«Qəbələ» qəzetinə**

**2016-cı ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


## ALLAH RƏHMƏT ELƏSİN

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşıdları **Səhrab Umuyevə**, yaxın qohumu

**ƏMİR MƏMMƏDOVUN**

vəfatı münasibəti ilə dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.